BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT: 341,2; 341.231.14**

# İNSAN HÜQUQLARI SAHƏSİNDƏ UNİVERSAL TƏŞKİLATİ MEXANİZMLƏR (BMT VƏ ONUN İNSAN HÜQUQLARI SAHƏSİNDƏ ƏSAS QURUMLARI)

**S.F.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***aliyev_subhan@yahoo.com***

*Məqalədə insan hüquqları sahəsində universal təşkilati mexanizmlər araşdırılmışdır. Avropa İnsan hüquqları Konvensiyası bir sıra mühüm əhəmiyyət kəsb edən xüsusiyyətlərə malikdir. Məhz bu Konvensiya hüquqi cəhətdən məcburi olan ilk regional insan hüquqları məcəlləsidir. İnsan hüquqlarının müdafiəsi üzrə əsas beynəlxalq müqavilələr, o cümlədən Avropa insan hüquqları Konvensiyası hüquqi müdafiə vasitələrindən istifadə və fərdi şikayətlər imkanını beynəlxalq səviyyədə bəyan edir. 4 noyabr 1950-ci ildə Roma şəhərində Avropa insan hüquqları Konvensiyası bağlanmışdır.*

**Açar sözlər**: insan hüquqlar, beynəlxalq təşkilatlar, dövlət idarəetməsi, müqavilə orqanları, hüquqi müdafiə, hüquqi aktlar, təşkilati mexanizm

İnsan hüquqları sferasında beynəlxalq hüquq normalarının realizəsində universal təşkilati mexanizmlər, əsasən də BMT-nin təşkilati mexanizmləri xüsusi rol oynayır. Ümumiyyətlə, BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti bu istiqamətdə konkret orqanların, müqavilə orqanlarının və ixtisaslaşmış təsisatların fəaliyyətindən ibarətdir.

BMT Nizamnaməsində qeyd edilir ki, Təşkilatın məqsədi din, dil, cins və irqindən asılı olmayaraq bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və genişləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdır (maddə 1.3).[9, 2] Nizamnaməyə əsasən insan hüquqlarına riayət olunması dövlətlərin daxili işi deyil, BMT orqanları müvafiq məsələləri müzakirə edə bilər.

BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində əsas orqanı 1946-cı ildə yaradılmış **İnsan Hüquqları Komissiya**sıdır. Bu orqan Nizamnamənin 68-ci maddəsinə müvafiq olaraq təsis edilmişdir. Həmin maddədə qeyd edilir ki, İqtisadi və Sosial Şura iqtisadi və sosial sahələrdə və insan hüquqlarına dəstək vermək üçün komissiyalar, habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir [6, 24].

Əvvəlcə 9 əsas üzvdən ibarət Komissiya hazırda ECOSOC tərəfindən üç

illik müddətə regional kvota əsasında (Afrikadan 15, Asiyadan 12, Latın Amerikası və Karib dənizi hövzəsindən 11, Qərbi Avropa və digər dövlətlərdən 10) seçilən 53 üzv-dövlətin nümayəndəsindən ibarətdir. Komissiya hər il Cenevrə şəhərində iclas keçirir.

Komissiyanın ilk əhatəli və vacib işi Ümumdünya İnsan hüquqları Bəyannaməsinin hazırlanması olmuşdur. Komissiya insan hüquqlarının müdafiəsi sahəsində geniş səlahiyyətlərə malikdir. Komissiyanın iclaslarında insan hüquqlarının pozulması faktları ilə bağlı verilmiş ərizələrə baxılır və müvafiq araşdırmalar aparılır. Komissiya çərçivəsində ayrı-ayrı dövlətlər və qeyri-hökumət təşkilatları insan hüquqlarının müdafiəsi ilə bağlı məsələlər qaldıra bilər.

Fəaliyyətinin ilk 20 ilində (1947-1966) Komissiya insan hüquqları sahəsində beynəlxalq standartların işlənib hazırlanması ilə məşğul idi. Bu müddət ərzində Komissiya insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin bazasını təşkil edən üç sənədi ərsəyə gətirmişdir – 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsi, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və 1966-cı il iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt.

XX əsrin 60-cı illərindən ECOSOC Komissiyanın fəaliyyətini genişləndirməyə başladı. 1967-ci ildə 1235 (XLII) saylı Qətnaməsi ilə ECOSOC İnsan hüquqları üzrə Komissiyaya bütün dünyada insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması ilə bağlı məlumatların araşdırılması ilə bağlı səlahiyyət verdi. Bu səlahiyyət çərçivəsində Komissiya baş vermiş pozuntularla bağlı ciddi təhqiqat aparmalı və ECOSOC-a müvafiq məsələ ilə bağlı tövsiyə təqdim etməlidir. Əgər əvvəllər 1235 saylı Qətnamənin proseduru aparteid cinayətlərinə qarşı həyata keçirilirdisə, hazırda bu prosedur müntəzəm insan hüquqları pozuntularına qarşı da həyata keçirilir.[12, 170]

Komissiyanın insan hüquqları ilə bağlı şikayətlərə baxan xüsusi məruzəçiləri və işçi qrupları fəaliyyət göstərir. Bütün bu prosedur və mexanizmlər dövlətlər tərəfindən insan hüquqları üzrə öz beynəlxalq öhdəliklərinə riayət etməsinə nəzarət olunması məqsədi daşıyır. XX əsrin 70-80-ci illərində müvafiq prosedurların realizəsi Komissiyanın əsas fəaliyyət istiqamətini təşkil edirdi.

XX əsrin 90-cı illərində insan hüquqlarının ümuməhatəli şəkildə realizəsi yolunda maneələrin aradan qaldırılması məqsədilə Komissiya konsultativ xidmətlərə və texniki yardıma böyük diqqət ayırmağa başladı. İnkişaf hüququ və layiqli həyat səviyyəsi hüququ da daxil olmaqla, iqtisadi, sosial və mədəni hüquqların realizəsinə geniş imkanlar yaradılmışdı. Komissiyanın fəaliyyətində milli azlıqların, qadınların, köklü xalqların hüquqlarının müdafiəsinə də xüsusi diqqət yetirilirdi.

2003-cü ilin mart-aprel aylarında Cenevrə şəhərində Komissiyanın 59-cu sessiyası keçirildi. Bu iclasda BMT-nin demək olar ki, bütün üzv-dövlətlərinin nümayəndələri iştirak etmişdi. Məruzəçilər və ekspertlər ayrı-ayrı ölkələrdə insan hüquqlarının pozuntusu faktlarına dair məlumatları təqdim etmişdilər. İclasın yekununda dünyada sülhün və təhlükəsizliyin, insan hüquqlarının qorunmasına dair bir çox qətnamə və qərarlar qəbul edilmişdir.

Artıq 2003-cü ildən İnsan Hüquqları üzrə Komissiyası universal dəyərlər əsasında insan hüquqları mədəniyyətinin yayılması və bütün dünyada insan hüquqları pozuntuları qurbanlarının müdafiəsi üzrə tədbirlərin qəbulu üçün məsuliyyət daşıyan BMT-ın əsas siyasi orqanına çevrilmişdi. Komissiya öz fəaliyyətini hər hansı ayrıca hüquq və azadlıqlar kateqoriyası və ya hər hansı ayrıca pozuntularla məhdudlaşdırmır. O, kobud və kütləvi xarakterli bütün hüquq-pozmalarla məşğul olur.

Bu halda Komissiya üçün müvafiq problem üzrə beynəlxalq müqavilədə bu və ya digər dövlətin iştirak edib-etməməsi əhəmiyyətli deyil, çünki Komissiya beynəlxalq hüququn hamılıqla qəbul etdiyi adət normalarının pozulmasıyla məşğul olur [3, 160]. Son illər ərzində Komissiya müxtəlif ölkələrdə insan hüquqlarıyla bağlı növbəti problemləri müzakirə etmişdir. Məsələn, iqtisadi, sosial və mədəni hüquqlar, öz müqəddəratını təyin etmək hüququ, işgəncələr, ölüm cəzası, söz azadlığının həyata keçirilməsinə görə həbslər, uşaq hüquqları, irqi ayrı-seçkilik, azlıqların hüquqları və s.

Komissiya insan hüquqlarının ümumi problemlərinin geniş diapazonu və bəzi konkret ölkələr üçün xüsusi məsələlərə baxır və qərarlar qəbul edir. O, araşdırmalar keçirir, insan hüquqları sahəsində standartlar yaradan beynəlxalq sənədləri hazırlayır, həmçinin onun köməkçi orqanı (İnsan hüquqlarının müdafiəsi və genişləndirilməsi üzrə Yarımkomissiya) tərəfindən hazırlanmış tövsiyələr və tədqiqatlara baxır. Komissiya həmçinin, BMT Baş Məclisi və ECOSOC tərəfindən tapşırılmış insan hüquq və azadlıqlarının pozulmasına dair xüsusi tapşırıqları yerinə yetirir. O, insan hüquqları sahəsində səlahiyyətli olan BMT-nin bütün qalan orqanlarıyla sıx əməkdaşlıq edir.

Bundan başqa, Komissiya, bütün BMT sistemində insan hüquqları üzrə fəaliyyətin razılaşdırılması kimi kifayət qədər mürəkkəb işdə ECOSOC-a köməklik edir. 1990-cı ildən başlayaraq, Komissiyaya 53 üzvdən azı 27-nin razılığı olduğu halda insan hüquqları sferasında daha ciddi problemlərin tədqiqi üçün iclasların keçirilməsi həvalə olunmuşdur.

Komissiya öz işində işçi qrupları, xüsusi məruzəçilər, müstəqil ekspertlər, səlahiyyətli nümayəndələr, tematik məruzəçilərin fəaliyyətini də nəzərdə tutur. Belə qurumların arasında Miqrantların hüquqları üzrə xüsusi məruzəçi, Din və ya etiqad azadlığı üzrə xüsusi məruzəçini qeyd etmək olar. Məruzəçilər müvafiq dövlətlə birgə araşdırma və təhlillər aparır, tədqiqatın nəticələrinə dair Komissiyaya rəy verir.

Komissiyanın fəaliyyətində tematik mexanizmlər xüsusi rola malikdir. Belə mexanizmlər ilk dəfə 1980-ci ildə Zorakı və ya məcburi yox olma halları üzrə işçi qrupunun yaradılması ilə fəaliyyətə başlamışdır. 1991-ci ildə Özbaşına həbsetmə üzrə işçi qrupu yaradılmışdır.

2005-ci ildən İnsan Hüquqları Komissiyasının daxili strukturunda və fəaliyyətində ciddi dəyişikliklər aparılmış və nəticədə BMT Baş Məclisinin 15 mart 2006-cı il tarixli 60/251 saylı Qətnaməsi ilə Komissiya İnsan hüquqları Şurası ilə əvəz edildi. **İnsan Hüquqları Şurası** BMT sistemində insan hüquq-

larının hörmət prinsipinə və bütün dünyada insan hüquqlarının müdafiəsinə dəstək verən və insan hüquqları sahəsində baş vermiş pozuntuları araşdıran və tövsiyələr hazırlayan dövlətlərarası orqandır. İnsan Hüquqları Şurası Həmçinin insan hüquqlarının vəziyyəti ilə bağlı tematik sualları müzakirə edir və bu sahəyə diqqət tələb edir. Şuranın toplantıları Cenevrədə İnsan Hüquqları üzrə Ali Komissarın ofisində həyata keçirilir.

Şura insan hüquqlarının sistemli şəkildə pozuntusu halları da daxil olmaqla, insan hüquqlarının pozulması hallarını araşdırır. Şuranın müvafiq istiqamətdə əsas funksiyaları aşağıdakılardan ibarətdir:

- insan hüquqları pozuntusu baş vermiş dövlətlərə təlim-tədris köməyi göstərilməsi;
- insan hüquqlarının müdafiəsi sferasında beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi üzrə BMT Baş Məclisinə tövsiyələr vermək;
- insan hüquqlarının müdafiəsi sahəsində dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin realizəsinə kömək etmək;
- insan hüquqları sahəsində ümumi dövri məruzələr işləyib hazırlamaq;
- dövlətdaxili mexanizmlərlə əməkdaşlıq etmək;
- insan hüquqlarının pozulması faktları və görülmüş işlər barədə Baş Məclisə illik məruzələr təqdim etmək və s [8, 56].

İnsan hüquqları Şurası ədalətli coğrafi bölgü prinsipi əsasında Afrikaya 13 yer, Asiyaya 13 yer, Şərqi Avropaya 6 yer, Latın Amerikasına 8 yer, Qərbi Avropaya 7 yer nəzərdə tutur. Şuranın sessiyaları ildə 3 dəfədən az olmayaraq keçirilir. Şuranın tərkibi dövrü olaraq rotatsiya olunan və BMT Baş Assambleyası tərəfindən seçilən 47 üzv dövlətdən ibarətdir [7, 45].

İnsan Hüquqları Şurasının insan hüquqlarını müdafiə və təşviq edən, həmçinin dövlətlərin insan hüquqları sahəsində öhdəliklərinə əməl etməsini qiymətləndirən orqan və mexanizmləri vardır. Bunlar aşağıdakılardır:

- Universal Dövrü İcmal;
- Məsləhət Komitəsi;
- Şikayətlərin verilməsi və baxılması üzrə Prosedur.

***Universal Dövrü İcmal***. Bu mexanizm çərçivəsində dövrü olaraq BMT-yə üzv olan dövlətlərdə insan hüquqlarının vəziyyəti qiymətləndirilir. BMT üzvü olan hər bir dövlət 4 ildə bir dəfə İnsan Hüquqları Şurasına Universal Dövrü İcmal mexanizmi çərçivəsinə ölkədə insan hüquqlarının vəziyyətinə dair məlumat təqdim edir. Məlumatlar həmçinin insan hüquqları sahəsində maraqlı olan təsisatlardan, o cümlədən QHT-lərdən də qəbul edilir.

Universal Dövrü İcmal (UDİ) Mexanizmi İnsan Hüquqları Şurası ilə bərabər və Şuranın yaradılması barədə qətnamə əsasında təsis olunmuş və şuranın strukturuna daxil olan unikal mexanizmdir. BMT üzvü olan 193 dövlət hər 4 ildə bir dəfə olmaqla UDİ proseduru çərçivəsində insan hüquqlarının vəziyyətinə dair məlumat təqdim edir. UDİ BMT üzvü olan dövlətlərdə insan hüquqlarının vəziyyətinə dair informasiya əldə edilməsi, vəziyyətin müzakirəsi və töv-

siyələrin verilməsi baxımından BMT-nin ən effektiv nizamnamə mexanizmi hesab oluna bilər [18, 2].

Universal Dövrü İcmal mexanizminin əsas məqsədi İnsan hüquqları vəziyyətinin təkmilləşdirilməsi, dövlətin insan hüquqları sahəsində öhdəliklərinin yerinə yetirilməsi, Müsbət dəyişikliklərin və problemlərin qiymətləndirilməsi, dövlətin potensialının və texniki yardımının genişləndirilməsi, ən yaxşı təcrübələrin bölüşdürülməsi, əməkdaşlığın dəstəklənməsi, Şura, digər insan hüquqları orqanları və İnsan Hüquqları üzrə Ali Komissar Ofisi ilə sıx əməkdaşlığın dəstəklənməsi yolu ilə bütün dünyada insan hüquqlarının müdafiəsini təmin etmək və insan hüquqlarını təşviq etməkdir.

Respublikamız İnsan hüquqları Şurasına üzv qəbul olunarkən bir sıra öhdəliklər götürmüşdür və bu öhdəliklərdən biri də universal dövri icmal mexanizmi ilə bağlıdır. İlk belə məruzə 2009-cu ildə dinlənilmişdir. BMT-in İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının birinci məruzəsinə dair yekun rəyində verilmiş tövsiyələrin həyata keçirilməsi məqsədilə 22 dekabr 2010-cu il tarixində müxtəlif dövlət orqanları nümayəndələrini özündə birləşdirən İşçi Qrupu yaradılmış və Azərbaycan Respublikası birinci məruzəsinə dair yekun rəydə verilmiş tövsiyələrin həyata keçirilməsi üzrə aralıq hesabatını 2012-ci il tarixində BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisinə təqdim etmişdir. İkinci dövri məruzə hazırlanarkən, sözügedən İşçi Qrupunun rəy və təklifləri nəzərə alınmışdır.

BMT-in İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikasının ikinci dövri məruzəsi, Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Sərəncamı əsasında yaradılan İşçi Qrupu tərəfindən hazırlanmışdır. İkinci dövri məruzəsi hazırlanarkən, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq edilmişdir.

20 sentyabr 2013-cü il tarixdə Şuranın 24-cü sessiyası çərçivəsində Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan üzrə hesabatının qəbul edilməsi ilə bağlı iclas keçirilmişdir. İclasda, ölkəmizə təqdim olunmuş 162 tövsiyədən 158-nin tamamilə və ya qismən qəbul edildiyini və həmin tövsiyələrin bir hissəsinin artıq həyata keçirildiyini və qalan tövsiyələrin isə həyata keçirilməkdə olduğunu bildirib.

Əməkdaşlıq mexanizmi olan universal dövri icmalın nəticələri ilk növbədə müvafiq dövlət, habelə digər müvafiq maraqlı tərəflər tərəfindən yerinə yetirilməlidir. Növbəti icmal zamanı əvvəlki icmalla bağlı verilən tövsiyələr, dövlətin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi diqqətə alınır. Universal dövri icmalın nəticələrini nəzərdən keçirilməsi zamanı Şura müəyyən sonrakı fəaliyyətin zəruri olub-olmadığı barədə qərar qəbul edir. Dövləti Universal Dövri İcmal mexanizmi ilə əməkdaşlıq etməyə həvəsləndirmək məqsədilə bütün səylər tükəndikdən sonra Şura UDİ mexanizmi ilə əməkdaşlığı davam etdirmək və ya əməkdaşlığı dayandırmaq məsələsini həll edir.

Şuranın ikinci nəzarət orqanı ***Məsləhət Komitəsidir***. İnsan Hüquqları Şurasının 5/1 saylı qətnaməsi əsasında tərkibi 18 nəfər ekspertdən ibarət olan

Məsləhət Komitəsi təsis olunmuşdur. Məsləhət Komitəsi 2006-cı ilədək fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Alt Komissiyanı əvəz etmişdir.

Bu prosedurun məqsədi Şuraya ən yaxşı ekspert rəylərini təqdim etməkdir. Məsləhət Komitəsinin Şuraya təqdim etdiyi ekspert rəyləri əsasən elmi əsaslandırılmış və tədqiqatlara söykənməklə Şuranın tələb etdiyi formada və məzmunda olmalıdır. Belə ekspertizalar yalnız Şuranın sorğusu əsasında, onun qətnamələrinə uyğun və onun rəhbərliyi altında həyata keçirilir.

Məsləhət Komitəsinin məsləhət rəylərinin dairəsi Şuranın mandatı ilə məhdudlaşan tematik məsələləri - insan hüquqlarının təşviqi və müdafiəsi ilə bağlı olan məsələləri əhatə edir. Məsləhət Komitəsi qətnamə və ya qərar qəbul etmir, amma Şuraya insan hüquqları sahəsində fəaliyyətlərin səmərəliliyinin artırılması və gələcək tədqiqatların aparılmasına dair məsləhətlər verir.

Şuranın iş prinsiplərinə uyğun olaraq Məsləhət Komitəsi şöz mandatı üzrə vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlətlərlə, milli insan hüquqları təsisatları, qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyəti qurumları ilə qarşılıqlı əməkdaşlıq və birgə fəaliyyət mexanizmləri müəyyən edir. Şura üzvü olan ölkələr, müşahidəçi ölkələr, o cümlədən Şura üzvü olmayan ölkələr, ixtisaslaşmış agentliklər, digər dövlətlərarası beynəlxalq təşkilatlar, milli insan hüquqlarını müdafiə edən təsisatlar, həmçinin QHT-lər razılaşmalar və EKOSOC-un 1996/31 saylı qətnaməsinə uyğun olaraq Məsləhət Komitəsinin işində iştirak etmək hüququna malik olmalıdır [10, 6].

Məsləhət Komitəsi hər biri on gün olmaqla ildə iki dəfə sessiya keçirir. Şuranın 25 mart 2011-ci il tarixli 16/21 saylı qətnaməsinə uyğun olaraq Şura ilə Komitənin qarşılıqlı fəaliyyətini yaxşılaşdırmaq məqsədilə Komitənin ilk sessiyası İnsan Hüquqları Şurasının mart sessiyasından əvvəl keçirilməlidir. İkinci sessiya isə avqust ayında keçirilməlidir. Bundan əlavə Komitəninin illik hesabatı Şuraya sentyabr sessiyasına təqdim edilməli və Komitə nümayəndəsi ilə interaktiv dialoq olmalıdır.

Şuranın üçüncü nəzarət proseduru ***Şikayətlərə baxılması prosedurudur***. İnsan Hüquqları Şurası 18 iyun 2007-ci il tarixində 5/1 saylı qətnamə qəbul etmişdir. "İnsan Hüquqları Şurası: İnstitusional quruculuq" adlanan qətnamədə insan hüquqlarının pozulması halı ilə bağlı şikayətlərə baxılmasının yeni qaydaları müəyyən edilmişdir. Şikayətlərə baxılması prosedurunun məqsədi dünyanın istənilən yerində və istənilən şəraitdə insan hüquq və azadlıqları hallarının kobud və sistematik pozulmasına operativ reaksiya verməkdir.

Şikayətlərə baxılmasının yeni prosedurası BMT Baş Məclisinin 15 mart 2006-cı il tarixili 60/251 qətnaməsi ilə Şura üzərinə qoyulmuş mandata uyğun həyata keçirilir. Həmin qətnaməyə əsasən Şura üzərinə, əvvəlki xüsusi prosedur və ekspert məsləhətləri sistemini qorumaq şərti ilə 2006-ci ilin mart ayına qədər fəaliyyət göstərmiş İnsan Hüquqları Komissiyasının bütün mandat və prosedurlarını, o cümlədən "1503 Prosedurunu" təkmilləşdirmək, mandatları, prosedur və funksiyaları ratsionallaşdırmaq vəzifəsi qoyulmuşdur. Beləliklə, ECOSOC-un 27

may 1503 (XLVIII) saylı qətnaməsi ilə qəbul olunmuş və 19 iyun 2000-ci il tarixli 2000/3 saylı qətnamə ilə yenilənmiş şikayətlər proseduru yeni şikayət prosedurunun hazırlanması üçün baza rolunu oynamışdır[16, 2].

BMT Baş Məclisinin mandatına uyğun olaraq 30 iyun 2006 tarixində Şura Baş Məclisin 60/251 saylı qətnaməsinin 6-cı bəndinin tələblərini yerinə yetirmək məqsədi ilə işçi qrup yaratmışdır. İşçi qrup, bütün prosedurların, o cümlədən "1503 Prosedurunun" təkmilləşdirilməsi və ratsionallaşdırılması ilə bağlı tövsiyələr hazırlamalı idi. İşçi qrup üzərinə qoyulan vəzifələrlə bağlı təklif və tövsiyələrini təqdim etdikdən sonra Şura "İnsan Hüquqları Şurası: İnstitusional Quruculuq" adlı yekun sənədində əks etdirilmişdir.

İnsan Hüquqları Şurasının 5/1 qətnaməsinə uyğun olaraq yeni şikayət proseduru dünyanın istənilən hissəsində sistematik və etibarlı təsdiqi olan kobud insan hüquqları pozuntularını aradan qaldırmağa xidmət etməlidir. Əvvəllərdə olduğu kimi yenilənmiş prosedur da konfedensial xarakter daşıyır və haqqında şikayət verilən dövlətlə əməkdaşlığı nəzərdə tutur. Prosedurun məqsəd qurbanı vaxtında və effektiv müdafiə etməkdir.

Prosedur çərçivəsində iki işçi qrup mövcuddur: Məlumatlar üzrə və Şərait üzrə işçi qrupları. İşçi qruplarının məqsədi məlumatları öyrənmək və Şuranın diqqətini sistematik və etibarlı şəkildə təsdiq olunan kobud insan hüquqları pozuntularına yönəltməkdir. Prosedur çərçivəsində Şuraya ünvanlanan məlumatlar, ilk növbədə, İnsan Hüquqalrı üzrə Ali Komissar ofisinin əməkdaşları məlumatlar üzrə işçi qrupunun rəhbəri ilə birgə məqbulluq nöqteyi-nəzərindən yoxlayır və kifayət qədər əsaslandırılmayan məlumat olduqda qəbulolunmaz hesab olunur və rədd edilir. İlkin mərhələni keçən məlumatlar müvafiq dövlətə göndərilir və ondan cavab xahiş olunur[17, 5].

*Məlumatlar üzrə işçi qrup* İnsan Hüquqları Şurasının Məsləhət Komitəsi tərəfindən Komitə üzvləri sırasından 3 il müddətində təyin olunur (mandatın müddəti uzadıla bilər). İşçi qrup 5 nəfərdən ibarət olmaqla yüksək kvalifikasiyalı ekspertlərdən təşkil olunur və dünyanın 5 regionunu təmsil edir. İşçi qrup hər dəfə 5 həftə olmaqla ildə iki dəfə toplanır və şikayətlərin məqbulluluq məsələsini və xarakterini müəyyən edir. İşçi qrup həmçinin müəyyən edir ki, daxil olan şikayət tək-tək hallardır və ya sistematik və total xarakter daşıyır. Məqbul hesab olunan bütün məlumatlar (şikayətlər) Şərait üzrə İşçi Qrupa təqdim edilir.

*Şərait üzrə İşçi Qrup* da eyni qaydada təşkil olunur və tərkibi 5 nəfərdən ibarətdir. İşçi Qrup ildə iki dəfə hər dəfə 5 həftə müddətinə toplanır və məlumatlar (şikayətlər) üzrə işçi qrupun təqdim etdiyi məlumatları (şikayətləri), dövlətlərdən şikayətlərlə bağlı gələn cavabları və Şuranın bu prosedur çərçivəsində üzləşdiyi analoji halları öyrənir.

Bundan sonra əldə edilən informasiya və məlumatlar işçi qrupun tövsiyələrini də nəzərə almaqla İnsan Hüquqları Şurasına sistematik və etibarlı şəkildə təsdiq olunan kobud insan hüquq və azadlıqlarına dair məruzə təqdim edir. Məruzəyə İşçi qrup tərəfindən zəruri tədbirlərə dair tövsiyələr də daxil edilir. Bundan sonra hər bir şəraitlə bağlı Şura ayrı-ayrı qərarlar qəbul edir.

İnsan hüquqları Şurasının ***xüsusi prosedurları*** da var. Ümumi adı "Xüsusi Prosedurlar" olan, İnsan Hüquqları Komissiyası tərəfindən yaradılmış və sonradan İnsan Hüquqları Şurası tərəfindən də qəbul olunmuş konkret şərait və ya tematik mövzular üzrə bütün dünyada insan hüquqlarının vəziyyətinə baxan və İnsan Hüquqları Şurasına məruzələr hazırlayan prosedurlardır. Onların sayı müxtəlif ola bilər. Hazırda 29 tematik və 9 ölkə mandatı mövcuddur. İnsan Hüquqları üzrə Ali Komissarın ofisi prosedurlara işçi heyətlə, maddi-texniki təchizatla, tədqiqatların aparılmasına dəstək verməklə yardım edir [11, 4].

Ölkələr üzrə mandatı olan prosedurlar ölkələrdə sistematik olaraq monitorinqlər və məsləhətləşmələr aparır və ictimaiyyət üçün insan hüquqlarının vəziyyətinə dair açıqlamalar verir. Tematik Mandatı olan prosedurlar çərçivəsində isə bütün dünyada konkret mövzular üzrə insan hüquqlarının pozulması halları ilə bağlı müxtəlif fəaliyyətlər, o cümlədən ayrı-ayrı şəxslərin şikayətlərinin cavablandırılması, tədqiqatların aparılması, milli çərçivələrdə texniki əməkdaşlıq üçün məsləhətlərin verilməsi və insan hüquqlarının ümumi təşviqi məsələlərində iştirak edir.

Xüsusi Prosedurlar ya fərdi şəxs (Xüsusi Məruzəçi) olmaqla "məruzəçi", "Baş Katibin xüsusi nümayəndəsi", "Baş Katibin nümayəndəsi" və ya "müstəqil ekspert" adlanır, ya da adətən tərkibi 5 nəfərdən ibarət olan işçi qrupdan (hər regiondan bir nəfər) ibarət olur. Xüsusi Prosedurların mandatı onların formalaşmasına dair qətnamə ilə müəyyən olunur. Xüsusi Prosedur üzrə mandatı olan şəxs öz şəxsi keyfiyyətləri ilə fəaliyyət göstərir və işinə görə BMT-dən əmək haqqı və ya hər hansı kompensasiya almır.

Xüsusi Prosedur üzrə mandatı olan şəxsin müstəqil olması öz funksiyalarını effektiv həyata keçirmək və qərəzsiz olmaq üçün olduqca vacibdir. Əksər Xüsusi Prosedurlar öz fəaliyyətləri çərçivəsində insan hüquqlarının pozulmasına dair konkret ərizələrə dair məlumatlar alır və onu hökumətlərə göndərərək ehtimal olunan pozuntu ilə bağlı dərhal fəaliyyətə başlamağı və pozuntu barədə izahat verməyi xahiş edir. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı ofisinin məlumatına görə 2007-ci ildə dünyanın 128 ölkəsinə 1000-dən artıq belə məlumat göndərilmişdir. Bu məlumatlardan 49%-i iki və daha artıq mandatı olan prosedur tərəfindən göndərilmişdir [14, 54].

Xüsusi Prosedur üzrə mandatı olan məruzəçilər həmçinin milli çərçivədə insan hüquqlarının vəziyyətini araşdırmaq üçün ölkələrə səfər edirlər. Ölkəyə gəlmək üçün mandatı olan məruzəçi həmin ölkəyə gələmək üçün xahiş məktubu göndərir. Dövlət razılıq verdiyi halda dəvət məktubu göndərir və beləliklə ölkəyə gəlmə baş tutur. Bir sıra ölkələr BMT Xüsusi Prosedurlarının bir qisminə və ya hamısına daimi dəvət vermişdir ki, bu da o deməkdir ki, həmin ölkələr məruzəçi və işçi qrupların istənilən vaxt ölkəyə gəlməsinə etiraz etmirlər. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Ofisinin məlumatına görə 2008-ci ilə qədər 62 dövlət belə daimi dəvət prosedurunu tətbiq etmişdir. Ölkəyə səfərin nəticəsi olaraq məruzəçilər səfərə dair qənaətlər və tövsiyələr əks olunan hesabat hazırlayırlar.

BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində əsas orqanlarından biri **Qadınların statusu üzrə Komissiyadır**. Bu orqan ECOSOC-un 21 iyun 1946-cı il 11 (II) saylı Qətnaməsi əsasında təsis edilmişdir. Komissiya ECOSOC tərəfindən seçilən 45 üzvdən ibarətdir. Komissiya öz məruzələrini bilavasitə ECOSOC-a təqdim edir.

Komissiyanın əsas vəzifəsi müxtəlif sahələrdə qadın hüquqlarının təşviqi üzrə ECOSOC-a tövsiyə və məruzələr təqdim etmək, qadın hüquqlarının müdafiəsi məqsədilə effektiv təkliflərin hazırlanmasıdır. Komissiya öz fəaliyyətində qadın və kişilərin hüquq bərabərliyini hüquqi və faktiki baxımdan reallaşdırmağa çalışır.

ECOSOC-un 26 may 1987-ci il tarixli 1987/22 saylı Qətnaməsi ilə Komissiyanın səlahiyyətləri genişləndirilmiş və regional, subregional və milli səviyyələrdə qadın problemləri, qadınların hüquq bərabərliyi, sülh və inkişafa dəstək, qadınların sosial statusunun yaxşılaşdırılması kimi məsələlərin həlli Komissiyanın funksiyalarına daxil edilmişdir.

**Qaçqınların işi üzrə BMT Ali Komissar İdarəsi** (QAKİ) BMT çərçivəsində insan hüquqlarının, konkret olaraq qaçqınların hüquqlarının müdafiəsi üzrə əsas təşkilatı mexanizmdir. Özünün 319A(IV) saylı 3 dekabr 1949-cu il tarixli qətnaməsində Baş Assambleya Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşi üzrə Ali Komissarının İdarəsini təsis etməyi qərara aldı. Bu idarə Baş Assambleyanın yardımçı orqanı kimi 1951 - ci il yanvarın 1 - dən etibarən ilk əvvəl üç il müddətinə yaradılmışdı.

QAKİ-nin fəaliyyət dairəsinə qaçqınlarla yanaşı, məcburi köçkünlərin hüquqlarının müdafiəsi də daxildir. Məcburi köçkünlərin sayı 2014-cü ilin ortalarında rekord həddə - 46,3 milyon nəfərə çatıb. BMT-nin Ali komissarı Antonio Quterreşə qeyd edir ki, "2014-cü ildə biz himayəmiz altında olan şəxslərin sayının misilsiz səviyyəyə çatdığını gördük. Dünya birliyi mövcud münaqişələrin siyasi həlli yolunu tapmadıqca, eləcə də yeni münaqişələrin qarşısını almadıqca, biz bunun dramatik humanitar nəticələri ilə qarşılaşmaqda davam edəcəyik" [15, 7].

QAKİ Yaxın Şərqdə və Afrikada baş verən müharibələri qaçqınların sayının artmasının səbəbi hesab edir və bildirir ki, təşkilat Suriya, Əfqanıstan, Sudan, Cənubi Sudan, Konqo Demokratik Respublikası, Myanma, İraq və başqa qaynar nöqtələrdə münaqişə zonalarını tərk etmiş insanlara yardım göstərir.

İdarənin Nizamnaməsinin 1-ci maddəsinə görə Ali Komissarın başlıca vəzifəsi qaçqınları beynəlxalq müdafiə ilə təmin etməkdən, onların könüllü surətdə vətənlərinə qaytarılmasında və yaxud yeni ölkələrdə assiimilasiyalarını yüngülləşdirməkdə hökumətlərə yardım göstərmək yolu ilə bu problemin qəti şəkildə həll edilməsi yollarını axtarıb tapmaqdan ibarətdir. Ali Komissarın funksiyaları öz xarakterinə görə "tamamilə siyasətdən uzaq", "humanitar və sosial" funksiyalar kimi müəyyənləşdirilmişdir [4, 9].

Qaçqınların müdafiə olunması və onların problemlərinin həlli üçün uzunmüddətli variantların axtarılması – QAKİ-nin iki əsas funksiyası bunlardan

ibarətdir. Nizamnaməsinin 8-ci maddəsinə əsasən İdarə öz məqsədlərinə nail olmaq üçün növbəti tədbirləri həyata keçirir: sığınacaq axtaran şəxslərin sorğularının nəzərdən keçirilməsinə köməklik göstərilməsi, hüquqi məsləhətlər verilməsi və hüquqi köməklik göstərilməsi, qaçqınların fiziki təhlükəsizliklərinin təmin edilməsinə dair tədbirlər görülməsinə yardım göstərilməsi, könüllü repatriasiya yardım və buna müvafiq köməklik göstərilməsi, habelə qaçqınların köçürülməsinə yardım göstərilməsi [13, 64].

Bundan əlavə, hamılıqla qəbul olunmuş insan hüquqlarının bir çoxu birbaşa qaçqınlara da aiddir. Bunlara yaşamaq hüququ, işgəncələrdən və pis rəftardan qorunma hüququ, vətəndaşlıq hüququ, sərbəst hərəkət hüququ, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ və məcburən geri qaytarılmağa məruz qalmamaq hüququ daxildir.

Bu hüquqlar həm vətəndaşlığı olan, həm də vətəndaşlığı olmayan bütün insanlara şamil edilən digər mülki, siyasi, sosial və mədəni hüquqlarla yanaşı Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit edilmişdir.

Həmin sənədlərdəki müvafiq müddəalara diqqət yetirək: a) “Heç kim əsassız həbs edilməyə, tutulub saxlanılmaya və sürgün edilməyə məruz qalmamalıdır” (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 9-cu maddə); b) “Hər bir insan təqiblərdən qurtulmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir” (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 14-cü maddə); c) “Hər bir insan vətəndaşlıq hüququna malikdir” (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 15-ci maddə); d) “Hər bir insan sərbəst hərəkət etmək və hər bir ölkə daxilində özünə yaşayış yeri seçmək hüququna malikdir. Hər bir insan öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir” (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 13-cü maddə; Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 12-ci maddə) [5, 187].

Respublikamız QAKİ ilə sıx əməkdaşlıq edir. 1996-cı il iyulun 9-da AR Hökuməti ilə QAKİ arasında Saziş imzalanmışdır. Bu Saziş özündə QAKİ-nin öz mandatına müvafiq olaraq hökumətlə edəcəyi əməkdaşlığın, ölkədə şöbəsinin açılmasının və qəbul edən ölkədə qaçqınların və himayə etdiyi digər şəxslərin beynəlxalq müdafiəsi və onlara humanitar yardımın göstərilməsi funksiyalarının həyata keçirilməsinin əsas şərtlərini əks etdirir [1, 2].

BMT-nin İqtisadi və Sosial Şurasında 2012-ci il aprelin 26-da səsvermə keçirilmiş və böyük səs çoxluğu ilə Azərbaycan BMT-nin Qaçqınlar və Məcburi Köçkünlər üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə üzv seçilmişdir.

2012-ci ilin oktyabrın 1-də Cenevrədə keçirilən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 63-cü sessiyasında çıxış edən Ali Komissar Antonio Quterreş Azərbaycanın bu sahədə gördüyü işləri yüksək qiymətləndirmiş, dövlətimizi bu taleyi yaşayan başqa ölkələrə nümunə çəkmişdir: "Dünyada elə ölkələr var ki, qaçqın və məcburi köçkünlərə yardım etmir, yal-

nız onların acınacaqlı vəziyyətini dünyaya nümayiş etdirməklə siyasi məqsədlərinə nail olmağa çalışırlar. Bundan fərqli olaraq Azərbaycan hökuməti məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün nümunəvi tədbirlər həyata keçirir. BMT QAKİ bunu alqışlayır və münaqişə həll olunduqdan sonra könüllü qayıdışın mümkün olduğunu ifadə edir" [2, 2].

Beləliklə, BMT və onun insan hüquqları sahəsində əsas qurumları haqqında yuxarıda qeyd etdiklərimizi ümumiləşdirib qeyd etmək istərdik ki, Azərbaycan Respublikası BMT-nin himayəsi altında qəbul edilmiş və dövlətlərin qoşulduğu insan hüquq və azadlıqlarına dair universal sənədlərə tərəfdar çıxmaqla insan hüquq və azadlıqlarına dair universal standart və mexanizmləri qəbul etmişdir.

Azərbaycan Respublikası 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edilmiş və 1992-ci il mayın 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. Azərbaycan Respublikası BMT-nin üzvü olduqdan sonra bu qurumla hərtərəfli əməkdaşlıq edir və BMT strukturlarında fəal surətdə təmsil olunur. Azərbaycan Respublikası 2006-cı ildən İnsan Hüquqları Komissiyasının əvəzinə tasis olunan İnsan Hüquqları Şurasının ilk üzvləri sırasında olmuşdur. Azərbaycan Respublikası həmçinin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. BMT-nin ixtisaslaşmış təsisatlarının üzvüdür.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Hökuməti ilə BMT Qaçqınlar üzrə Ali Komissarı arasında Saziş. 09.07.1996.
2. Rzalı R. Azərbaycanda qaçqın və məcburi köçkünlərə göstərilən qayğı BMT-də yüksək dəyərləndirilib. “Azərbaycan”qəz., 2012, 23 oktyabr, № 238.-s.2.
3. Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М., Юрид. лит., 1991.
4. Устав международной организации по делам беженцев. www.unhcr.ru/fileadmin/files/docs/Documents/Устав_УВКБ_ООН.pdf
5. Alston P., Goodman R. International Human Rights. The Successor to International Human Rights in Context. Law, Politics and Morals. Oxford University Press, Oxford, 2013.
6. Basic Facts about the United Nations 2014. United Nations Department of Public Information, New York, 2014.
7. Bassiouni M. Cherif, William A. Schabas. New Challenges for the UN Human Rights Machinery What Future for the UN Treaty Body System and the Human Rights Council Procedures. 2011.
8. Bertrand G. Ramcharan. The Law, Policy and Politics of the UN Human Rights Council. Brill-Nijhoff, 2015.
9. Charter of the United Nations and Statute of the International Court of Justice. United Nations Publication.
10. Consultative Relationship between the United Nations and non-Governmental Organizations. Economic and Social Council. Resolution 1996/31. 49th Plenary Meeting 25 july 1996.
11. Special Procedures of the Human Rights Council. http://www.claiminghumanrights.org/hrc_specialprocedures.html
12. Spobr M. United Nations Human Rights Council. Between Institution-Building Phase and Review of Status. Max Planc yearbook of United Nations Law. Vol. 14, 2010.
13. Statute of the Office of the United Nations High Commissioner for Refugees. The

General Assembly, In View of its Resolution 319 A (IV) of 3 December 1949.
14. The Human Rights Council and its Special Procedures, From Criticism to Hope. Information Update for FAS' Networks 21 March 2007. From the UN Commission for Human Rights to the Human Rights Council.
15. www.avromedia.az/bmt-dunyada-qacqinlarin-sayi-re.
16. http://www.elibrary.humanrightshouse.org/library/doc1/arh/11.pdf.
17. http://www.un1503petition.com/vP/whatIsTheUN1503.htm.
18. www.ohchr.org.

## УНИВЕРСАЛЬНЫЕ ИНСТИТУЦИОНАЛЬНЫЕ МЕХАНИЗМЫ В ОБЛАСТИ ПРАВ ЧЕЛОВЕКА (ООН И ЕЕ ОСНОВНЫЕ ИНСТИТУТЫ В ОБЛАСТИ ПРАВ ЧЕЛОВЕКА)

**С.Ф.АЛИЕВ**

**РЕЗЮМЕ**

В статье определены универсальные институциональные механизмы в области прав человека. Европейская Конвенция о защите основных прав и свобод человека, принятая 4 ноября 1950 года в Риме, имеет ряд важных особенностей. Именно эта Конвенция представляет собой первый юридически обязательный региональный кодекс по правам человека. Основные международные договоры по защите прав человека, в том числе Европейская Конвенция о защите основных прав и свобод человека, на международном уровне заявляет о возможности использования средств правовой защиты и индивидуальных жалоб.

**Ключевые слова:** права человека, международные организации, государственное управление, договорные органы, правовое обеспечение правовых актов, институциональный механизм.

## UNIVERSAL INSTITUTIONAL ARRANGEMENTS IN THE FIELD OF HUMAN RIGHTS (THE UN AND ITS INSTITUTIONS IN THE MAJOR HUMAN RIGHTS)

**S.F.ALIYEV**

**SUMMARY**

The article defines universal institutional arrangements in the field of human rights. European Convention on Human Rights has a number of important features. This Convention is the first legally binding regional Code of Human Rights. The major international treaties on human rights, including the European Convention on Human Rights on the international level, note the possibility of using remedies and individual complaints. European Convention on Human Rights was concluded on November 4, 1950 in Rome.

**Key words:** Human rights, international organizations, public administration, treaty bodies, legal support, legal acts, institutional mechanism